Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Əhədov Xalid İlham oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 24 noyabr 2014-cü il tarixli, 08 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 26 noyabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Əhədov Xalid İlham oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 noyabr 2014-cü il tarixli, 08 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş namizəd Əhədov Xalid İlham oğlu 2014-cü il noyabrın 24-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, adıçəkilən dairə seçki komissiyası tərəfindən namizədliyinin qeydiyyatından qanunsuz imtina edilməsini bildirmiş və bununla əlaqədar qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Şikayətdə göstərilən halların tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi nəticəsində müəyyən edilmişdir ki, şikayətçi X.İ. Əhədov 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Mamusta bələdiyyəsi üzrə öz təşəbbüsü ilə namizədliyini irəli sürmüş, namizədliyin təsdiq olunması üçün Azərbaycan

Respublikası Seçki Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulan sənədləri 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmiş, müvafiq dairə seçki komissiyasının 7 noyabr 2014-cü il tarixli 7/21-01 saylı qərarı ilə Əhədov Xalid İlham oğlunun namizədliyi maneə olmadan təsdiq olunaraq, ona namizədin müdafiəsi məqsədilə imza toplamaq üçün imza vərəqələri verilmişdir.

Ərizəçi imza vərəqələrini və Seçki Məcəlləsinin 58.1-ci maddəsində nəzərdə tutulan digər seçki sənədlərini 2014-cü il noyabrın 16-da müvafiq dairə seçki komissiyasına şəxsən təqdim etmişdir. Həmin sənədlər baxılması üçün 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasında yaradılmış işçi qrupuna verilmiş və onların yoxlanılması nəticəsində müvafiq dairə seçki komissiyasının 20 noyabr 2014-cü il tarixli, 11/30-4 saylı qərarı ilə X.İ.Əhədovun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası Xalid Əhədovun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədin müdafiəsi üçün imza vərəqəsində olan 50 seçici imzasından 23-ü etibarsız hesab edilmiş və bu əsasla da onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində dairə seçki komissiyasının mübahisələndirilən qərarının çıxarılmasına əsas olmuş, namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb olunaraq müvafiq araşdırma aparılıb rəy verilməsi üçün Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış işçi qrupuna təqdim olunmuşdur. İşçi qrupu tərəfindən namizədliyin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 24 noyabr 2014-cü il tarixli rəylər və protokoldan görünür ki, bələdiyyə üzvlüyünə namizəd X.İ.Əhədovun namizədliyinin qeydə alınması üçün təqdim etdiyi imza vərəqəsində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Başqa sözlə, namizəd tərəfindən toplanılmış 50 seçici imzasının hamısı etibarlı hesab edilmişdir. Etibarlı imzaların sayı həmin bələdiyyə üzrə namizədliyin qeydə alınması üçün kifayət etdiyindən və namizədə aid digər sənədlər Seçki Məcəlləsinin tələblərinə uyğun olduğundan ərizəçinin namizədliyinin qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Belə ki, Seçki Məcəlləsinin 215.1.5-ci maddəsinə əsasən əhalisi 4.999-dan çox olan ərazidə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş 30 etibarlı seçici imzası toplamalıdır. Müvafiq icra hakimiyyəti orqanının təqdim etdiyi arayışla təsdiq olunur ki, Mamusta bələdiyyəsinin əhatə etdiyi ərazidə əhalinin sayı Seçki Məcəlləsinin yuxarıda qeyd edilən maddəsi ilə müəyyən edilmiş say həddindədir.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasının Əhədov Xalid

İlham oğlunun namizədliyinin Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmasından imtina edilməsi barədə 20 noyabr 2014-cü il tarixli 11/30-4 saylı qərarı ləğv edilməli, onun həmin seçki dairəsindən bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əhədov Xalid İlham oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 noyabr 2014-cü il tarixli, 08 saylı şikayəti təmin edilsin, onun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 20 noyabr 2014-cü il tarixli, 11/30-4 saylı qərarı ləğv edilsin.
2. 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əhədov Xalid İlham oğlunun bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınsın.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev